# Səyyar qəbullar

Əgər həyat davam edirsə, insan bu həyatı yaşayırsa, zamanından asılı olmayaraq hər kəs müəyyən problemlərlə üzləşir. İctimai problemlərin həlli ilə aidiyyatı təşkilatlar məşğul olur. Çox zaman insanlar öz həyat tərzi ilə əlaqədar problemlərlə qarşılaşır və onların həll olunmasında çətinlik çəkirlər. Ancaq hər dövrün də öz xeyirxahları olur. Xeyirxah əməllər və bu missiyaya riyaət edən insanlar insanlara yaşama gücü, sabahkı həyata inam yaradır. Ayrı-ayrı insanlar, aidiyyatı təşkilat, idarə və müəssisələr qayğıya ehtiyacı olan şəxslərə, ailələrə həmişə yardımçı olurlar.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin avqust ayından səyyar qəbul Aydınqışlaq kəndində və Qəbələ şəhərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.





Aydınqışlaq kəndi.



Qəbələ şəhəri.



**"Qəbələ"**
**Fotolar Səhrab Umuyevindir.**

# Vətəndaş qəbulu



4 avqust 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. Onların irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Növbəti qəbul



11 avqust 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər RİH başçısı tərəfindən dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Dostluq və etibarlı münasibətləri bildirən əlamətdar səfər

Azərbaycan ilə Özbəkistanın eyni kök, eyni dil və din bağlılığına baxmayaraq, dövlətlərimiz arasında diplomatik münasibətlər nisbətən gec - 1995-ci il oktyabrın 2-də yaradılıb. 1996-cı ildə Azərbaycanın Daşkənddə, iki il sonra isə Özbəkistanın Bakıda səfirliyi fəaliyyətə başlayıb. Münasibətlərin bu qədər ləng inkişafının kökündə isə 1990-cı illərin əvvəllərində hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün səbatsız fəaliyyəti olub. Bakı bütün müstəvilərdə bizə qardaş olan Özbəkistanla münasibətləri yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bərpa etməyə nail olub və bu gün Prezident İlham Əliyevin iqtidarı dövründə münasibətlərimiz özünün qızıl dövrünü yaşayır.

Şavkat Mirziyoyevin Özbəkistan Prezidenti seçilməsindən sonra ilk dövlət səfərini Azərbaycana etməsi qardaşlığımızın, dostluğumuzun, o cümlədən Özbəkistan rəhbərinin özünün şəxsən ölkəmizə, xalqımıza münasibətimizin göstəricisi olmaqla bərabər həm də ötən dövr ərzində əlaqələrimizin ən yüksək səviyyəyə yüksəlməsinin mühüm göstəricisidir.

Özbəkistan Prezidentinin cari səfəri hər iki dövlət üçün səbirsizliklə gözlənilən siyasi hadisə idi. Bildiyiniz kimi, hələ bu il iyulun 24-də Prezident İlham Əliyevin Prezident Mirziyoyevə ad günü münasibətilə zəng edərkən məhz bu səfərin əlaqələrimizin inkişafında növbəti mərhələ olacağına əminlik ifadə etmişdi. İlk növbədə, bu səfər ötən il müəyyən edilmiş hədəflərin icrasının səmərəliliyini təhlil etmək, habelə yeni qlobal düzəndə yeni prioritetlər, birgə hərəkət planları müəyyən edilməsi üçün mühüm imkan oldu.

Prezident İlham Əliyevin ötən il iyulun 21-də Özbəkistana səfəri çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə imzalanıb. Dövlətimizin başçısının mətbuat üçün birgə bəyanatda ifadə etdiyi kimi, "bu Saziş mahiyyətcə gələcək fəaliyyətimizin yol xəritəsidir". Bu çərçivədə münasibətlərin həqiqətən strateji səviyyəyə çatması üçün geniş spektrli prioritetlər və birgə fəaliyyət proqramları müəyyən edilib. Təqribən bir il bir ay sonra Şavkat Mirziyoyevin ölkəmizə dövlət səfəri çərçivəsində Azərbaycanla Özbəkistan arasında Ali Dövlətlərarası Şuranın yaradılması barədə müqavilənin imzalanması ötən dövr ərzində ölkələrimiz arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi istiqamətimizdə hədəflərin uğurla reallaşdırıldığını əyani şəkildə sübut edir. ölkələrimiz arasında iqtisadi əlaqələrə gəlincə, statistikaya əsasən, göstəricilər ilk dövrlərlə münasibətdə azı altı dəfə artsa da, ötən il Daşkənd görüşü zamanı Prezidentlər "məcmu halda iqtisadi əlaqələrimizin bizim münasibətlərimizə, imkanlarımıza uyğun gəlmədiyini" bildirmişdilər. Məhz Daşkənd görüşündə liderlər Azərbaycan-Özbəkistan qarşılıqlı münasibətlərini genişləndirməyi və həqiqətən yeni platforma, yeni istiqamətlər yaratmağı hökumətlərin üzərinə vəzifə olaraq qoymuşdu. Liderlərin Bakı Zirvə görüşündə müşahidə olunan ritorika deməyə əsas verir ki, artıq uğurlu nəticələr mövcuddur və artıq iqtisadi əlaqələri üst səviyyəyə daşıya bilərik. Artıq ticarət dövriyyəsinin 1 milyard dollara qədər yüksəldilməsi imkanları mövcuddur, energetika, turizm, maşınqayırma və digər sahələrdə əməkdaşlıq ciddi formada dərinləşib.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**